

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 161 (21.822)

25 avqust 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev UEFA Çempionlar Liqasının qrup mərhələsinə yüksələn Ağdamın “Qarabağ” futbol klubunun heyətini qəbul edib.

Futbolçuları salamlayan Prezident İlham Əliyev deyib ki, “Qarabağ” komandası Qarabağın adını daşıyır. “Qarabağ” komandası işğal altında olan Ağdam şəhərini təmsil edir. Ona görə sizin qələbənizin çox böyük əhəmiyyəti, mənası var. Bu, sadəcə olaraq, idman qələbəsi deyil, bu, dövlətimizin, Azərbaycan gəncliyinin, vətənpərvər insanların qələbəsidir.

* * *

Avqustun 24-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Gəmi İnşası və Təmiri Mərkəzində yeni inşa edilmiş “Tufan” tipli sərhəd gözətçi gəmisi ilə tanış olub və növbəti “Tufan” tipli sərhəd gözətçi gəmisinin təməlini qoyub.

* * *

Prezident İlham Əliyev avqustun 24-də İtaliya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Auqusto Massarinin etimadnaməsini qəbul edib.



## İqtisadiyyatın dinamik inkişafı davam etdirilir

***Müasir cəmiyyət quruculuğunun əsas şərtlərindən biri güclü iqtisadiyyata sahib olmaqdır. Bu mənada, müstəqil Azərbaycanın ümumi inkişaf mənzərəsində mühüm yer tutan Naxçıvan Muxtar Respublikasında iqtisadi və sosial sahələrdə qazanılan uğurları öz davamlılığı ilə xarakterizə etmək mümkündür. Muxtar respublika iqtisadiyyatı, onun stabil artım dinamikası, möhkəm təməllər üzərində qurulmuş strateji xəttə uyğunluğu və güclü iradə hesabına inkişaf etməkdədir.***

Əsası ümummilli liderimiz tərəfindən müəyyən olunmuş iqtisadi inkişaf strategiyası müasir uğurlarımızın əsasını təşkil edir. Ölkəmizdə regionların inkişafının diqqət mərkəzində saxlanılması, neft gəlirlərimizin insan kapitalının formalaşmasına yönəldilməsi istiqamətində qəbul edilmiş mühüm dövlət qərarlarının icrası Naxçıvan Muxtar Respublikasının da hərtərəfli inkişaf etməsinə zəmin yaradıb. Naxçıvanın zəngin yeraltı, yerüstü təbii sərvətlərinin, əmək ehtiyatları və turizm potensialının fəal olaraq iqtisadi dövriyyəyə cəlb olunması bir zamanlar burada möcüzəvi görünən iqtisadi layihələri reallığa çevirib. Bəli, bu, indi çoxlarına təəccüblü görünsə də, indi Naxçıvan minik avtomobillərinin istehsal olunduğu, ərazisinin, demək olar ki, tamamında yüksəkkeyfiyyətli 4G mobil rabitə şəbəkəsinin xidmətlərindən istifadə edilən, yaxın regionda ən güclü Günəş Elektrik Stansiyasının işə salındığı, ildə 450 minə yaxın turistin səfər etdiyi bir məkana çevrilib. Naxçıvanda həyata keçirilən iqtisadi layihələrlə bərabər, irimiqyaslı infrastruktur quruculuğu əhalinin həyat səviyyəsini kökündən dəyişdirib. Bu göstəricilər baxımından şəhərlə kəndin bir-birinə yaxınlaşması, əhali gəlirlərinin artırılması, məşğulluq və məskunlaşma məsələləri dövlətin daimi qayğısına çevrilib.

Muxtar respublikada mövcud olan bütün iqtisadi resurslardan səmərəli istifadə üçün geniş təcrübə formalaşıb. Bu təcrübənin müxtəlif sahələr üzrə uğurla tətbiq olunması iqtisadiyyatın şaxələndirilməsi kimi günün tələblərinin yerinə yetirilməsinə imkan yaradır. Cari ilin ilk 7 ayının nəticələrinə nəzər saldıqda görürük ki, bu dövrdə ümumi daxili məhsul istehsalının həcmi bir il öncəki dövrlə müqayisədə artaraq 1 milyard 458 milyon 392 min 300 manat olub ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,7 faiz çoxdur. Ümumi daxili məhsulun tərkibində ilk yeri 604 milyon 952 min manat dəyərində sənaye sahəsi tutur ki, bu da 2016-cı ilin müvafiq dövründəki göstəricidən 1,2 faiz çox deməkdir.

Bazar iqtisadiyyatında azad sahibkarlığın stimullaşdırılması onların səmərəli fəaliyyəti üçün əsas şərtlərdəndir. Naxçıvanda özəl bölmənin inkişaf etdirilməsi üçün görülən işlər cari ilin ötən dövründə də davam etdirilib. Belə ki, 2017-ci ilin yanvar-iyul aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 13 milyon 266 min 200 manat məbləğində kreditlər verilib ki, bunların da 10 milyon 553 min 400 manatı və yaxud 79,6 faizi uzunmüddətli kreditlər olub. Sahibkarlığın inkişafı yeni iş yerlərinin açılmasına və əhali gəlirlərinin artmasına da öz təsirini göstərib. Belə ki, 2017-ci ilin yanvar-iyul aylarında muxtar respublikada əhalinin gəlirləri 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz artaraq 1 milyard 10 milyon 750 min manat, onun hər bir nəfərə düşən məbləği isə 2245,6 manat təşkil edib.

Naxçıvanda iqtisadiyyatın şaxələndirilməsi istiqamətində ciddi addımlar atılır. Bu baxımdan muxtar respublika üzrə ümumi daxili məhsulda ilk yeri tutan sənaye sahəsindən sonra digər bir mühüm sahə olan kənd təsərrüfatının da inkişafı diqqətdə saxlanılır. Torpaqla məşğul olan kəndliyə hər cür köməklik göstərilməsi, əl əməyinin yüngülləşdirilməsinə imkan verən ən müasir texnikaların muxtar respublikaya gətirilməsi, emal müəssisələri, anbar və istixana şəbəkəsinin genişləndirilməsi bu sahədə yüksək nəticələr əldə etməyə imkan verib. Nəticədə, regionda taxıl, ət, süd, kartof, meyvə-tərəvəz məhsullarının, habelə yüksəkkeyfiyyətli Naxçıvan balının istehsalında yüksək nailiyyətlər əldə olunmaqdadır. 2017-ci ilin yanvar-iyul aylarında 223 milyon 716 min 400 manat dəyərində, başqa sözlə, 2016-cı ilin müvafiq dövründəki göstəricidən 3,4 faiz çox kənd təsərrüfatı məhsulu istehsal edilməsi bu sahədə ilin yekunlarının uğurlu olacağını proqnozlaşdırmağa imkan verir.

Xarici iqtisadi əlaqələr muxtar respublika iqtisadiyyatının dinamik inkişafının və investisiya cazibədarlığının mühüm göstəricilərindən biridir. Naxçıvanın ixrac məhsullarının növü və bazarları genişləndikcə iqtisadi fəaliyyətin bu mühüm sahəsində də göstəricilər diqqəti cəlb edir. Təkcə 2017-ci ilin ilk 7 ayında muxtar respublikada, əsasən, ixracatyönümlü 238 milyon 339 min 600 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsinin həcmi Naxçıvan Muxtar Respublikasının bu sahədə etibarlı əməkdaşlığından xəbər verir.

İqtisadi inkişaf insan amilindən asılı olduğu kimi, onun nəticələri də insan kapitalının formalaşmasına xidmət edir. Bu strateji xəttə dönmədən əməl edilməsi muxtar respublikamızın sosial-iqtisadi həyatının bütün sahələrində öz bəhrəsini verməkdədir. Yaşadığımız torpağın tərəqqisi üçün yorulmadan çalışan fədakar insanlar gələcəkdə də Naxçıvan iqtisadiyyatının dinamik inkişafını təmin edəcəklər.

✍ **Əli CABBAROV**

## Muxtar respublikada əhalinin meyvə-tərəvəzlə təminatı diqqət mərkəzindədir

*Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunmasında, əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində, emal müəssisələrinin xammalla təchiz edilməsində kənd təsərrüfatı məhsulları istehsalının mühüm rolu var. Ona görə də muxtar respublikada aqrar sektorun inkişafına ciddi önəm verilir, intensiv metodlara və müasir texnologiyalara əsaslanan kənd təsərrüfatı məhsulları istehsalının həcmi ilbəil artır.*




Muxtar respublikada qışa ciddi hazırlaşmaq, payız-qış mövsümündə əhalinin tələbatını tam ödəmək üçün görülən tədbirlərin sırasında əhalini təzə meyvə-tərəvəzlə təmin etməyə imkan verən soyuducu anbarların gücündən tam istifadə olunması, bazarda bolluq yaradılması xüsusi yer tutur.

Bazarı ekoloji cəhətdən sağlam meyvə-tərəvəzlə təmin etmək üçün soyuducu anbarların mühüm rolu vardır. Xüsusən kənd təsərrüfatı məhsullarının saxlanılmasında anbarlar vacib funksiyanı həyata keçirir. Sahibkarlığa Kömək Fondu vasitəsilə ayrılan güzəştli kreditlər və sahibkarların şəxsi vəsaiti hesabına Naxçıvanda soyuducu anbarlar inşa olunur. Soyuducu anbarların yaradılması həm məhsulların qorunub saxlanılaraq istehlakçıya çatdırmağa, eyni zamanda bu məhsulların ixracını daha da artırmağa imkan verir.

Naxçıvanda bu kimi məsələlərin vacibliyinin lazımınca qiymətləndirilməsinin nəticəsidir ki, istər soyuducu anbar, istərsə də istixana təsərrüfatlarının yaradılması sahəsində müsbət nəticələr əldə olunmuş və bu istiqamətdə işlər uğurla davam etdirilir. Hazırda muxtar respublikada ümumi tutumu 14 min 30 ton olan 31 soyuducu anbar fəaliyyət göstərir.

Muxtar respublikada qış mövsümündə əhalinin kənd təsərrüfatı məhsullarına olan tələbatının ödənilməsi, qiymətlərin tənzimlənməsi və idxaldan asılılığın azaldılması məqsədilə soyuducu anbarlara məhsul qəbulu davam edir. Tədarük başlayan dövrdən 21 avqust 2017-ci il tarixədək soyuducu anbarlara kənd təsərrüfatı üzrə ixtisaslaşmış sahibkarların fəaliyyətinin stimullaşdırılması məqsədilə tələbatdan artıq istehsal edilmiş 1624,89 ton məhsul tədarük olunmuşdur. Bunun da 1497,08 tonu kartof, 76,37 tonu soğan, 8,6 tonu alma, 40,04 tonu ərik, 2,8 tonu kələm məhsuludur. Tədarük edilmiş meyvə-tərəvəz məhsullarından 200,3 tonunun satışı həyata keçirilmişdir.

Əhalinin qış aylarında faraş tərəvəz məhsulları ilə təmin olunması da mühüm məsələlərdən biridir. Bu sahəyə göstərilən diqqətin nəticəsində muxtar respublikada 127 min 162 kvadratmetr sahədə tərəvəz məhsullarının yetişdirilməsi üzrə ixtisaslaşdırılmış 21 istixana təsərrüfatı fəaliyyət göstərir.

2017-ci ilin ötən dövrü ərzində istixana komplekslərində 497 ton məhsul istehsal olunaraq istehlak bazarının davamlı təchizatını təmin etmişdir. Bunun 298 tonunu pomidor, 187 tonunu xiyar, 12 tonunu digər tərəvəz məhsulları təşkil etmişdir.

Bu məhsulların keyfiyyəti də diqqət mərkəzində saxlanılmış, “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin laboratoriyası tərəfindən soyuducu anbarlara tədarük olunan və istixana komplekslərində yetişdirilən məhsullardan 45 halda orta nümunələr götürülərək keyfiyyət göstəriciləri təhlil edilmiş və göstəricilərin normativ-texniki sənədlərin tələblərinə cavab verdiyi müəyyənləşdirilmişdir.

İstixanalarda yetişdirilən və bazara çıxarılan bütün növ meyvə-tərəvəz məhsullarının təhlükəsizlik göstəricisi olan nitratların yoxlanılması nitrat test vasitəsilə mütəmadi olaraq davam etdirilmiş, 1250 halda meyvə-tərəvəz məhsullarında nitrat göstəricisi yerindəcə yoxlanılmışdır.

Kənd təsərrüfatının inkişaf etdirilməsi məqsədilə həyata keçirilən bu kimi tədbirlərin nəticəsidir ki, hazırda muxtar respublika əhalisinin meyvə-tərəvəz məhsullarına olan tələbatı, əsasən, yerli istehsal hesabına ödənilir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Kənd yolu yenidən qurulur



Muxtar respublikada magistral avtomobil yolları ilə yanaşı, kənd yollarının yenidən qurulması da diqqət mərkəzindədir. Bu tədbirlərin davamı olaraq Culfa rayonunun Dizə kəndində aparılan abadlıq və quruculuq işləri çərçivəsində kənd yolu yenidən qurulur. Hələ iki il bundan öncə uzunluğu 6,5 kilometr olan bu yolda torpaq işləri görülmüş, suötürücülər quraşdırılmışdı. Bu işlərin davamı olaraq hazırda yolun kənarında suaxıdıcı kanallar çəkilir, yola asfalt örtüyü salınır. İnşaatçılar Culfa-Ordubad magistralından Dizə kəndinə ayrılan yolun 6,5 kilometr hissəsində torpağın hamarlanaraq bərkidilməsi və yolun genişləndirilməsi işinə başlayıblar.

Təhlükəsizlik məqsədilə yolun yaxınlığından keçən qaz xəttinin də daha kənardan çəkilməsinə başlanılıb. Naxçıvan Yol Təmir-Tikinti İdarəsi tərəfindən həyata keçirilən yenidənqurma işlərində keyfiyyət amilinə üstünlük verilir.

✍ **Səbuhi HÜSEYNOV**

*Yeniləşən dağ kəndlərimiz*

# Dövlətimizin yaratdığı müasir şərait axuralıların rahat yaşayışını daha da yaxşılaşdırıb

***Muxtar respublikanın sürətlə inkişaf edən rayonlarından biri də Şərurdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev rayonun inkişafını yüksək qiymətləndirərək deyib: “Şərur rayonunda bütün sosial məsələlər həllini çox uğurla və keyfiyyətlə tapır, sosial infrastrukturun yaradılması sürətlə gedir”.***

Bunu Şərur rayonunun dağ və sərhəd kəndi olan Axuranın timsalında da görmək olar. Yolumuz dəniz səviyyəsindən 1300 metr yüksəklikdə yerləşən, aparılan quruculuq işlərindən sonra müasir görkəmə qovuşan, yeniləşmiş dağ kəndlərimizin sırasına daxil olan Axura kəndinədir. Bu yaşayış məntəqəsində hər yer yaşıllığa qərq olub, ağaclar barlı-bəhərlidir.

Ana təbiət yenidən öz qucağını ona pənah gətirən insanlara açıb. Torpaq sahibkarları əlverişli hava şəraitindən istifadə edərək bu ilin yazında bünövrəsini qoyduqları bol məhsulu toplamaqla məşğuldurlar. Bəli, yaşıllıqlara qərq olmuş Axura ilin bu vədəsində öz görkəmi ilə şəhərin istisindən “qaçıb” kəndə gələn hər kəsdə xoş duyğular oyadır.

Bu gün muxtar respublikamızın bütün yaşayış məntəqələri yüksək dövlət qayğısı əhatəsindədir. Yolların abadlaşdırılması, təhsil, mədəniyyət və tibb müəssisələri üçün yeni binaların, kənd və xidmət mərkəzlərinin tikilməsi nəticəsində yurd yerlərimizin görkəmi tamamilə dəyişilir. Belə genişmiqyaslı tədbirləri həyata keçirməkdə dövlətimizin əsas məqsədi ondan ibarətdir ki, şəhərlə kənd arasındakı fərq aradan qaldırılsın, kəndlərimiz gözəlləşsin, ayrı-ayrı sahələrdə çalışanlar üçün nümunəvi iş şəraiti yaradılsın, əhalinin maddi rifah halı yaxşılaşdırılsın. Eyni zamanda aqrar bölmə inkişaf etdirilsin, daxili bazarda daim məhsul bolluğu olsun.

Dövlətimizin bu istiqamətdə apardığı siyasət Şərur rayonunda, həmçinin Axura kəndində də uğurla həyata keçirilir. Bu kənddə 2014-cü ildə aparılmış bir neçə quruculuq ərməğanı sakinlərdə xoş ovqat yaradıb, onları doğma torpağa qırılmaz tellərlə bağlayıb.







Yeri gəlmişkən qeyd edək ki, bu yaşayış məntəqəsində köklü təhsil ənənələri olub. Lakin bir neçə il bundan əvvələ qədər kənd məktəbinin müasir tələblərə cavab verməməsi yeni məktəb binasının inşa olunması zərurətini yaratmışdı. Kəndin gələcək perspektivi əsas götürülərək 198 şagird yerlik yeni məktəb binasının tikilməsini kənd adamları onlara göstərilən dövlət qayğısının daha bir təzahürü hesab edirlər.

Axurada inşa olunan digər obyekt isə kənd mərkəzidir. İki mərtəbədən ibarət olan mərkəz kənddə fəaliyyət göstərən qurumlara normal iş şəraiti yaratmaq məqsədi daşıyır. Kənd mərkəzi nəzərdə tutulan qurumların birgə fəaliyyətinə, əhaliyə göstərilən xidmətin yüksək səviyyədə təşkilinə hərtərəfli şərait yaradıb. Kənddəki xidmət mərkəzində sakinlərə ticarət və məişət xidmətləri göstərilir.

Dizədən Axurayadək olan avtomobil yolu və yolun üstündəki iki körpü yenidən qurulub.

1590 nəfər sakini, 425 təsərrüfatı, 317,1 hektar əkinəyararlı torpaq sahəsi olan Axurada zəhmət adamları çoxdur. Kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Yusif Yusifov bildirdi ki, aqrar islahatlar zamanı əhaliyə 283 hektar pay torpaq sahəsi verilib, 6 hektar dövlət, 28,82 hektar bələdiyyə mülkiyyətində saxlanılıb.

Kənddə əkinçilik və maldarlıq ən gəlirli təsərrüfat sahələri hesab olunur. Ona görə də bu sahələrin inkişafı diqqət mərkəzində saxlanılır. Keçən il də torpaq mülkiyyətçilərinin qazandıqları uğurlar yaddaqalan olub.

Axura kəndində yaşayan torpaq mülkiyyətçilərinin məşğulluq sahələrinin biri heyvandarlıqdır. Kənd adamlarının dədə-baba peşəsi olan maldarlıqda əldə edilən zəngin təcrübə bu sahədə layiqli nailiyyətlər qazanılmasının başlıca səbəblərindən biridir. Digər tərəfdən, kəndin təbii iqlim şəraitinin, geniş örüş yerlərinin, çoxillik yonca sahələrinin olması heyvandarlığın daha da inkişaf etdirilməsinə təkan verir. Hazırda kənddə 354 baş qaramal, 2 min 400 baş davar, 1650 baş quş, 500 arı ailəsi bəslənilir.

Təqaüddə olan müəllim, 65 yaşlı Məmmədəli Orucov 25 arı ailəsinə sahib olduğunu bildirir və qeyd edir ki, təmiz havası, güllük-gülüstanlıq bağları olan Axura kəndi arı ailələrini saxlamaq üçün əlverişli yerdir. Hər il keyfiyyətli bal əldə edirik.

Zəhmətkeş insanlar olan axuralılar torpaqdan ikiəlli yapışıb, sahələri boş qoymayıblar. 15 hektarda dən üçün qarğıdalı, 15 hektarda çoxillik yem bitkiləri, 5 hektarda müxtəlif tərəvəzlər əkiblər. Bu dağ kəndinin təbii iqlim şəraitinə uyğun olan cəviz, alma, armud bağlarının sahəsi də 0,5 hektar artırılıb.

Şərur rayonunun daha bir yaşayış məntəqəsində kəndlə şəhər arasındakı fərqin aradan götürülməsi axuralıları öz doğma yurd yerlərinə daha sıx tellərlə bağlayıb, onları əl-ələ verib daha fədakarlıqla çalışmağa, xarüqələr yaratmağa ruhlandırır. Bir sözlə, zövqünü füsunkar mənzərələrdən, güzəranını bərəkətli torpaqlardan, sağlamlığını saf bulaqlardan və təmiz havadan alan axuralılar rahat yaşayışını da dövlətimizin yaratdığı müasir şəraitlə təmin edirlər.

✍ **Ramiyyə ƏKBƏROVA**

# Muxtar respublikada arıçılığın inkişafına diqqət artırılır

***Son illər muxtar respublikamızda digər təsərrüfat sahələri kimi, arıçılığın inkişafına da böyük qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”ndan irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə arıçılara güzəştli kreditlərin verilməsi, onlarla maarifləndirici söhbətlərin aparılması yeni uğurlar qazanılmasına zəmin yaradır.***

Bu dövlət proqramı muxtar respublikamızda arıçılığın təşkilini, hüquqi və iqtisadi əsaslarını müəyyən etməklə bu sahədə münasibətləri tənzimləyir. Arıçılığın inkişafı istiqamətində həyata keçirilən davamlı tədbirlər arı ailələrinin və arıçılıq məhsullarının çeşidinin artırılması, arıçılıqda xəstəliklərə qarşı mübarizə tədbirlərinin gücləndirilməsi keyfiyyətli məhsul istehsalına, bazarın yerli məhsullarla təmin olunmasına imkan verib.

Dövlət proqramının icrası nəticəsində bu sahədə daha böyük uğurlar qazanılacaq, yerli və ənənəvi arı cinsləri yetişdirilməsi davam etdiriləcək, məhsul istehsalı artırılacaqdır. Sənəddə arıçılıq təsərrüfatlarında elmi nailiyyətlərin və qabaqcıl təcrübənin tətbiqi üçün sahibkarlar arasında maarifləndirmə işlərinin aparılması, bal və digər arıçılıq məhsullarının emalı və qablaşdırılması müəssisələrinin yaradılması, tələbatdan artıq istehsal edilən arıçılıq məhsullarının ixracının stimullaşdırılması nəzərdə tutulub. Dövlət proqramının icrası nəticəsində muxtar respublika əhalisinin arıçılıq məhsullarına olan tələbatı yerli istehsal hesabına ödəniləcək, bu məhsulların ixracına nail olunacaq, arı ailələrinin sayı 100 minə çatdırılacaq, arıçılıq sahəsində mütəxəssislər hazırlanacaqdır.



Muxtar respublikamızda qədim və çox əhəmiyyətli təsərrüfat sahəsi olan arıçılığa göstərilən dövlət qayğısı öz bəhrəsini verib, bu sahə yüksək inkişaf mərhələsinə qədəm qoyub, arıçılıqla məşğul olmaq istəyən sahibkarlıq subyektlərinin sayı ildən-ilə artıb. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, bu gün muxtar respublikada 70 min 530-dan çox arı ailəsi saxlanılır. Bu da 1 yanvar 1996-cı il tarixə olan göstəricidən 8,8 dəfə çoxdur. Bu gün muxtar respublikada 4 min 800-dən çox sahibkar arıçılıqla məşğul olur ki, onlardan da 700-dən çoxunun 20-dən 350-dək arı ailəsi vardır.

Arıçılıqla məşğul olmağa bəziləri maraqlı məşğuliyyət kimi yanaşsalar da, əslində, bu qədim peşə həm də qazanc mənbəyidir. Bu təsərrüfat sahəsini genişləndirmək və inkişaf etdirməklə ailələr maddi güzəranlarını yaxşılaşdırırlar. Lakin arıçılıq xüsusi bilik və vərdişlərə malik olmağı tələb edir. Həmin keyfiyyətlərə yiyələnmədən, yenilikləri və qabaqcıl təcrübəni nəzərə almadan bu sahə ilə məşğul olanlar təsərrüfatlarını inkişaf etdirə bilmir, hətta ili zərərlə başa vururlar. Birliyimiz Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi ilə birgə arıçılar üçün iki adda xüsusi yaddaş kitabçası hazırlayıb və onlara çatdırılıb. Maarifləndirici xarakter daşıyan həmin yaddaş kitabçaları arıçılar üçün ilkin məlumat mənbəyi rolunu oynayır.

Arıçılığın mövcud vəziyyəti və gələcək inkişafı bu sahədə bəzi məsələlərə diqqət yönəldilməsini tələb edir. Bu məsələlərin həlli üçün əvvəlcə arıçıların arı xəstəlikləri, arı ailələrinin becərilmə üsulları və kimyəvi dərman vasitələrinin tətbiqi üzrə biliklərinin artırılması vacibdir. Tələbatdan artıq istehsal edilən arıçılıq məhsullarının stimullaşdırılması, muxtar respublikada arı xəstəliklərinin müayinəsi və diaqnozu üzrə mütəxəssislərin təkmilləşdirilməsi, arıçılıqda yeni texnologiyaların və qabaqcıl təcrübənin tətbiqi əhəmiyyətli məsələlərdəndir. Nümunəvi arıçılıq təsərrüfatlarının yaradılması və təbliği, muxtar respublikada köçəri arıçılığın idarə olunması, dağ və dağətəyi zonalarda arı ailələrinin məhsul üçün mövsümi köçürmələrində proporsional yerləşdirilməsi, həmçinin bu yerləşdirmə zamanı arıxanalar arasında saxlanacaq məsafənin təmin edilməsi bu sahənin daha sürətli inkişafını təmin edəcək.

Arıçılıqda Bozdağ Qafqaz və Sarı Qafqaz arı cinsləri ilə təmiz genofondun yaradılması, bununla da, məhsuldar təsərrüfatların qurulması imkanları genişdir. Məlumat üçün deyək ki, bu gün dünyada iqtisadi cəhətdən ən yaxşı arı cinsləri kimi, Avropa boz və qəhvə rəngi arı irqi, italyan arısı, karniola arıları, Qafqaz, Orta Anadolu və İran arılarının olduqları məlumdur. Lakin bu cinslər içərisində ən uzun xortuma malik olanı Sarı Qafqaz arı cinsidir.

Arı ailələrinin sığortalanması da mühüm əhəmiyyətə malikdir. Dövlət proqramının “Arı ailələrinin sığortalanması işinin təşkili. Bununla bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi” bəndində bu məsələ öz əksini tapıb. Muxtar respublikanın Dövlət Baş Sığorta Agentliyindən verilən məlumata görə, arı ailələri yoluxan xəstəliklərdən, xüsusi təhlükəli ziyanvericilərin yayılmasından və hücumundan, yanğın, çovğun, dolu, ildırım vurması hallarından sığortalanır. Arı ailələri dəyərinin 70 faizi məbləğində sığorta olunur, sığorta tarifi isə sığorta məbləğinin 5 faizi həcmində müəyyən olunur. Məsələn, 1 arı ailəsinin dəyəri 150 manat həcmində qiymətləndirilərsə, onun sığorta məbləği 105 manat müəyyənləşdirilir. Sığortahaqqı isə 5 faiz tariflə hesablanaraq 5 manat 25 qəpik ödəməklə onu sığorta etdirə bilər. Arı ailələrinin sığortalanması könüllü surətdə aparılır. Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi tərəfindən yeni formalaşdırılan bir ilə qədər arı ailələrinin (beçələrin) sığortalanması nəzərdə tutulmur.

Arıçılıq yeganə təsərrüfat növüdür ki, artırılmasında və genişləndirilməsində ətraf mühitə heç bir mənfi təsir göstərmir, normadan artıq yüklənmə baxımından isə məhdudiyyət yoxdur. Bu sahənin daha da inkişafı isə ətraf mühit üçün də faydalı nəticələr verəcək.

**Vaqif MƏMMƏDOV**
***“Naxçıvan Muxtar Respublikası Arıçıları” İctimai Birliyinin sədri***

## Sədərək rayonunda aqrar sahə sürətlə inkişaf edir

*Muxtar respublikamızın bütün bölgələrində olduğu kimi, Sədərək rayonunun təsərrüfatlarında da torpaq mülkiyyətçiləri tərəfindən yay təsərrüfat işləri davam etdirilir. Bölgədə taxıl əkiləcək sahələrdə şum qaldırılır, meyvə bağlarının, tərəvəz əkini sahələrinin məhsulu tədarük edilir.*

Muxtar respublikamızda torpaq mülkiyyətçilərinə göstərilən dövlət qayğısı, onlar üçün hərtərəfli şəraitin yaradılması, texnika və gübrə ilə təchizatda tətbiq olunan güzəştlər sədərəkli torpaq mülkiyyətçiləri tərəfindən minnətdarlıqla qarşılanır, onları daha həvəslə işləməyə sövq edir, son illərdə aqrar sahənin inkişafı hər bir torpaq mülkiyyətçisini daha da ruhlandırır, yeni-yeni uğurlar qazanmağa həvəsləndirir.

Dövlət qayğısının nəticəsidir ki, bu il muxtar respublikada taxıl biçini kampaniyasında ən yüksək göstərici Sədərək rayonunda qeydə alınıb. Belə ki, 2440 hektar taxıl əkini sahələrindən 7859 ton məhsul tədarük edilib, hər hektarın məhsuldarlığı 32,2 sentner təşkil edib.

Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, bu günə qədər meyvə bağlarından 485 ton meyvə, 1536 ton kartof, 4195 ton tərəvəz, 1806 ton bostan məhsulları yığılıb. Məhsul yığımı mütəşəkkilliklə davam etdirilir.

Xatırladaq ki, məhsuldarlığın ilbəil yüksəlməsində suvarma suyuna olan tələbatın dolğun ödənilməsi və əlavə torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasının da mühüm rolu vardır.

## İçməli su və kanalizasiya sistemləri yenidən qurulur



***Şərur rayonunda əhalinin təmiz və keyfiyyətli içməli su ilə təmin olunması, kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində işlər davam etdirilir.***

Bu günədək tutumu 7 min 500 kubmetr olan 1 ədəd və hər biri 10 min kubmetr su tutan 2 anbar tikilib, mövcud qalereyanın təmiri, yeni infrastrukturların, siyirtmə kamerasının tikintisi başa çatdırılıb. Bundan başqa, qalereyadan anbarlara qədər 1,5 kilometr uzunluğunda boru xətti, buradan Şərur şəhərinə qədər 7,1 kilometr əsas aparıcı boru xətti çəkilib. 50 kilometrdən artıq müxtəlif diametrli paylayıcı su xətləri, buna paralel olaraq kanalizasiya xətləri hazır vəziyyətə gətirilib, evlərə birləşdirici xətlərin çəkilişi davam etdirilib.

Hazırda əsas işlər rayon mərkəzinin prospekt və küçələrində aparılır. Su və kanalizasiya şəbəkələrinin çəkilişi zamanı istifadə olunan su sayğacları, borular, quyu qapaqları, yanğın hidrantları və digər avadanlıqlar yüksək keyfiyyətə malikdir. İşlərin gedişində diametri 110 millimetrdən min millimetrədək olan borulardan istifadə edilir.

✍ **Səbuhi HÜSEYNOV**

***Qədim diyarımız Naxçıvan. Bu gün bu diyar Azərbaycanın ən böyük tarixi şəxsiyyəti, xalqımızın ümummilli lideri Heydər Əliyevin, mütəfəkkirlərin, görkəmli sərkərdələrin, dahi söz korifeylərimizin arzularının reallaşdığı möhtəşəm bir məkandır. Ulu öndər ideyalarına böyük sədaqət nümayiş etdirən, ondan güc alan, görkəmli dövlət xadiminin göstərdiyi yolla qətiyyətlə irəliləyən, günü-gündən inkişaf edən, Şərqin qapısında məğrur dayanan, düşmənə gözdağı olan Naxçıvan bu gün vətənpərvərlik nümunəsinə çevrilib. Naxçıvanda həyat elə qurulub ki, yaxın və uzaq ölkələrdən buraya gələnlər ideal bir məkanda olduqlarını görürlər. Təəccübləndiklərini də gizlətmirlər ki, doğma Vətəndən cismən ayrı düşmüş bir məmləkətdə qısa zaman kəsiyində bu miqyasda inkişafa necə nail olunub? Bütün bu nailiyyətlər Azərbaycan Prezidentinin tövsiyə və tapşırıqlarını dərhal, həm də ən yüksək səviyyədə yerinə yetirən Vətənə sədaqətli naxçıvanlıların fədakarlığı sayəsində reallaşıb.***

# Naxçıvan:
## arzuların, xəyalların gerçəyə çevrildiyi məkan və ya bir ömür sədaqət borcu



Naxçıvanda bütün məsələlərə yalnız ədalətli yanaşmanın şahidi olursan. Nizam-intizam isə həyatın ayrılmaz tərkib hissəsidir. Bir çoxlarımızın mümkünsüz hesab etdiyi məsələ məhz burada gerçəkləşib: insanların şüurunda, müsbət mənada, inqilabi dəyişiklik baş verib. Hər kəs qanunlara sözsüz əməl etməyin əhəmiyyətini anlayır, Vətən üçün faydalı olan işlərə can atır, faydasız işlərlə məşğul olmaq istəyənlər dərhal ciddi ictimai qınaqla qarşılaşır. Burada ətraf mühitin, təmizliyin qorunmasına, insana həyat bəxş edən yaşıllıqların salınmasına, onlara vaxtında qulluq göstərilməsinə xüsusi diqqət yetirilir. Naxçıvanlılar Vətənə, xalqa, dövlətə, dövlətçiliyə, ulu öndərə, ölkə Prezidentinə, muxtar respublika rəhbərinə dərin sədaqətləri ilə seçilirlər.

Muxtar respublikadakı yüksək tələbkarlıq, prinsipiallıq, yorulmaz fəaliyyət, əqidə bütövlüyü, vətənpərvərlik kimi yüksək keyfiyyətlər idarəçiliyin aparıcı elementlərindəndir. Burada ümummilli liderin siyasi kursuna münasibətdə sözlə əməlin, dərin sədaqətlə konkret işin vəhdətini hər addımda görmək mümkündür. Naxçıvanda dahi şəxsiyyət Heydər Əliyev dövlətçilik konsepsiyasının qətiyyətlə, uğurla həyata keçirilməsi inkişafdan yeniləşməyə və yüksəlişə doğru hərəkatın başlıca təkanverici qüvvəsinə çevrilib. Bütün bunların nəticəsində özünün şaxələndirilmiş hərtərəfli inkişaf dövrünü yaşayan Naxçıvanın yeddiminillik tarixində ilk dəfədir ki, onun hətta ən ucqar dağ kəndləri də müasir şəhər görkəmi alıb, abadlaşıb, gözəl yaşayış məskəninə çevrilib. Muxtar respublikanın bu başından o başına uzanan şose yolları bütün kəndlərdə də özünə yer tapıb, kənddaxili yollar tamamilə asfaltlanıb, elektrik, qaz, su xətti çəkilib, telefonlaşdırılıb, internetlə tam təmin olunub, qısası, bu yaşayış məntəqələrinin şəhərdən heç bir fərqi qalmayıb. 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı olacaq, tarixi bir missiyanı yerinə yetirəcək müasir Naxçıvan bu gün yenitipli Avrasiya şəhəri kimi diqqətləri özünə cəlb edir.

Cəmiyyətimiz çox yaxşı bilir ki, bütün bunlar yalnız və yalnız nadir siyasi və dövlət xadimi Heydər Əliyevin həyat və mübarizə məktəbinin bilavasitə yetirmələri tərəfindən həyata keçirilə bilərdi. Və bu gün biz həmin məktəbin layiqli DAVAMÇISININ təkcə bu günümüzə deyil, gələcəyimizə də işıq saçan işlərinin şahidi oluruq. Həm də necə bir şəraitdə? Tam 27 ildir, blokadanın yaratdığı sarsıdıcı çətinliklərə baxmayaraq, Naxçıvanda yüksək iqtisadi fəallığa nail olunub, istehsal potensialı hərəkətə gətirilib, davamlı quruculuq işləri həyata keçirilib, sosial problemlər səmərəli həllini tapıb, ən əsası əhalinin güzəranı layiqincə yaxşılaşdırılıb və bu işlər davamlı xarakter alaraq bu gün də uğurla həyata keçirilir. Bütün iqtisadi fəaliyyət sahələrində sürətli inkişafa rəvac verən səmərəli iqtisadi siyasət muxtar respublikamızda tarazlı və davamlı inkişaf üçün başlıca amil olub, şəhər və rayonlarımızda canlanma yaranıb, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşdırılıb, yeni təsərrüfat subyektlərinin fəaliyyəti sayəsində çoxsaylı iş yerləri açılıb.

Bəs bütün bunlar necə mümkün olub? Bəli, bugünkü Naxçıvan Vətən və dövlət sevgisindən doğan, gərgin əmək və misilsiz əzmkarlığın nəticəsində qurulub, ucaldılıb, zirvələrə yüksəldilib. Ötən 21 ildə burada əsl qəhrəmanlıq salnaməsi yazılıb. Qədim məmləkətimizdə bu gün hər bir diyar üçün çox vacib olan, hərtərəfli tərəqqiyə şərait yaradan ictimai-siyasi sabitliyin qorunması, möhkəmləndirilməsi, muxtar respublikanın cinayətsiz bölgə, Naxçıvan şəhərinin isə təhlükəsiz şəhərə çevrilməsidir.

Burada bir məqama da diqqət çəkmək istərdim. Bir çoxumuz haqlı olaraq Vətənimizi həm də öz evimiz, ocağımız hesab edirik. Yəni "ev" dedikdə təkcə mənzilimiz nəzərdə tutulmaya bilər. Bizim ümumi evimiz həm də yaşadığımız şəhər, qəsəbə, kənd, diyar və nəhayət, ölkəmizdir. Reallıqdır ki, bunlarda inkişaf, abadlıq, quruculuq, təmizlik, sabitlik olmasa, bizim heç birimiz rahatlıq tapa, övladlarımızı rahat böyüdə, onları düzgün tərbiyə edə, yüksək təhsil almalarına nail ola bilmərik. Firavan həyatın birinci formulu yaşadığın diyarın abadlaşması, gözəlləşməsi və burada sabitliyin, əmin-amanlığın olmasıdır. Heç vaxt unutmuruq ki, bizim gələcəyimiz, taleyimiz yurdumuzun gələcəyi ilə birbaşa bağlıdır. Çünki, qeyd etdiyimiz kimi, yurdumuz hər birimizin ümumi evidir. Ona görə də insan öz evinə necə münasibət bəsləyirsə, Vətəninə də bu şəkildə yanaşmalıdır. Naxçıvanlılar bu baxımdan da nümunədirlər.

Bu gün Naxçıvanda hər kəs öz evinə necə diqqət yetirirsə, yaşadığı məkana da bu cür diqqət göstərir, onun təmizliyinin, abadlığının qayğısına qalır. Həm də bu səbəbdən diyarımız hər keçən gün daha da gözəlləşir. Onun inkişafını görəndə insan böyük fəxarət hissləri keçirir, gələcəyə inamı artır. İnanırsan ki, ümumi evimizdəki bu inkişafın, həyata keçirilən humanist siyasətin nəticəsində gec-tez sən də fərdi evin sahibi olacaqsan.

Bəli, mən də uzun illər bu hisslərlə yaşadım. Və bu, doğulub boya-başa çatdığım, evim, müqəddəs ocağım hesab etdiyim Naxçıvanda reallaşdı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun böyük diqqət və qayğısı nəticəsində Naxçıvan şəhərində üçotaqlı mənzillə təmin olunmağım barədə xəbəri eşidəndə sevincimin həddi-hüdudu yox idi. Məndən əvvəl də muxtar respublikada çalışan jurnalist həmkarlarım bu sevinci yaşamışdılar. Bu gün mənim də neçə illik xəyallarım dövlət qayğısı nəticəsində həyata keçmişdi. 22 ildir ki, ailə həyatı qurmuşam, ilk dəfədir, fərdi evim var. Təhsil aldığım və jurnalist kimi fəaliyyət göstərdiyim həmin illər ərzində İstanbulda, daha sonra isə Bakı şəhərində kirayədə yaşasam da, bu arzuma, istəyimə Naxçıvanda çatdım...

Dörd övladımla bu müddət ərzində kirayədə yaşamağın çətinliklərini sözlə ifadə etmək mümkün deyil. Üstəlik, bir övladım hazırda Azərbaycan Texniki Universitetinin 3-cü kursunda təhsil alır və o da Bakı şəhərində kirayədə qalır. Məhz belə bir vəziyyətdə muxtar respublika rəhbərinin göstərişi ilə Naxçıvan şəhərində mənə mənzil verildi. Bundan böyük diqqət və qayğını təsəvvür etmək mümkün deyil.

Yəqin ki, bu xəbəri eşidəndə mənim və ailə üzvlərimin, doğma kollektivimin və digər həmkarlarımın sevincinin necə hüdudsuz olduğunu təsəvvür edərsiniz.

Sosial şəbəkələrdə sevincimi dostlarla paylaşdığım andan qısa zamanda onlarla paylaşım oldu, yüzlərlə şərh yazıldı, təbrik mesajları ünvanlandı, muxtar respublika rəhbərinin bu addımı hər kəs, o cümlədən cəmiyyətin qaymağı hesab edilən ziyalılarımız tərəfindən alqışlarla qarşılandı. Ölkəmizdə fəaliyyət göstərən onlarla saytda bu barədə xəbər oxuculara çatdırıldı. Türkiyədəki jurnalist dostlarımın təbriklərinin də ardı-arası kəsilmirdi. Məni yaxından tanıyan həmkarlarım, dostlarım, qohumlarım telefonda təbrik etdikləri zaman onların çox kövrəldiklərini səslərindən hiss edirdim. Həmin dostların əksəriyyətinin dediyi bu sözləri isə heç vaxt unutmayacağam: "Sənə verilən evi sanki mənə verdilər. Ona görə də sənin qədər biz də sevinmişik".

*...Ədalət qütb ulduzu kimi yerində dayanar və geri qalan hər şey onun ətrafında dönər, – deyib dahilər. Ulu öndər Heydər Əliyevin doğulub boya-başa çatdığı Naxçıvan da doğma Azərbaycanımızın qütb ulduzudur. Tarixboyu bu diyar Azərbaycanın güclü dövlətçilik ənənələrinin, milli mədəniyyətinin, milli düşüncənin, milli ideologiyanın qorunub saxlanıldığı, kənar təsirlərdən hifz edildiyi bir məkandır. Buna görə də ən böyük arzumun məhz bu məkanda – Naxçıvanda reallaşması mənə daha böyük sevinc bəxş etdi. Bəlkə, belə də olmalı idi. Çünki Naxçıvan xəyalların, arzuların həyata keçdiyi müqəddəs bir diyardır. Bu diyara isə bir ömür sədaqət borcum var...*

**✍ Rauf KƏNGƏRLİ**

---

Məktəbdənkənar müəssisələrimiz

# Ətraf mühitin qorunmasında ekoloji təhsil əhəmiyyətli rol oynayır

***Ekoloji tərbiyə ahəngdar şəxsiyyət tərbiyəsinin mühüm tərkib hissəsidir. O, gənc nəsli ekoloji biliklərə yiyələnməyə, onlarda ekoloji mədəniyyəti formalaşdırmağa yönələn tədbirlər sistemidir. Ekoloji tərbiyənin əsasını təbiətə sevgi, onun mühafizəsi işi təşkil edir. İnsan təbiətin bir üzvüdür. Təbiət öz sərvətləri ilə insanı yaşadır, fiziki və mənəvi cəhətdən inkişaf etdirir, ona həyat verir. Lakin bəzən insan öz yaşamaq mənbəyinə – təbiətə, ekoloji mühitə ziyan vurur, udduğu havanı, içdiyi suyu, məhsulunu yediyi torpağı zəhərləyir. Bu yolla insanlıq özünüməhvə aparır, özü üçün dəhşətli fəlakətlər, xəstəliklər yaradır. Bunun qarşısını almaq üçün kiçik yaşlardan uşaqları təbiətə qayğı ruhunda tərbiyə etmək, ekoloji şüuru və mədəniyyəti formalaşdırmaq lazımdır.***

Naxçıvan şəhərində fəaliyyət göstərən Naxçıvan Muxtar Respublikası Ekoloji Tərbiyə Mərkəzi də öz işini bu istiqamətdə qurub. Buranın fəaliyyəti haqda məlumat əldə etmək məqsədilə həmin ünvanda olduq. Mərkəzin direktor əvəzi Həcər Heydərova bizimlə söhbətində bildirdi ki, 1971-ci ildə Gənc Təbiətçilər Stansiyası kimi yaradılan müəssisə 1991-ci ildən Ekoloji Tərbiyə Mərkəzi kimi fəaliyyət göstərir. Mərkəzin yerləşdiyi bina əsaslı şəkildə yenidən qurularaq 2013-cü ildə istifadəyə verilib. Məktəbdənkənar müəssisədə "Faunanın ekologiyası", "Floranın ekologiyası", "Əhali və ətraf mühit", "Kütləvi-təşkilati işlər", "Metodika", "Yeni yaradılmış ekoloji ictimai birliklərlə iş", "Kənd təsərrüfatı və ekologiya" adlı 7 kabinə, "Naxçıvan Muxtar Respublikasının heyvanlar aləmi və onun ekologiyası", "Dərman bitkiləri və onun ekologiyası", "Təbii sərvətlər və onun ekologiyası","Gülçülük və ailə", "Gülçülük və insan psixologiyası" kimi dərnəklər təşkil edilib. Ümumilikdə, 32 adda 102 dərnək məktəblilərin ekoloji tərbiyəsi ilə məşğul olur. Dərnəklərə 1422 şagird cəlb edilib. Mərkəzin kollektivi Naxçıvan şəhərində fəaliyyət göstərən ümumtəhsil məktəbləri şagirdlərinin dərnəklərə cəlbini yaxşılaşdırmaq, onların bu sahədə biliklərini daha da inkişaf etdirmək və asudə vaxtlarının səmərəli təşkili məqsədilə ardıcıl tədbirlər həyata keçirir. Dərnək rəhbərləri şagirdlərdə doğma yurdun təbiətinə məhəbbət hissləri formalaşdırmaq üçün bütün imkanlardan istifadə edirlər. Mərkəzdə çalışan müəllimlər öz məşğələlərini günün tələbləri səviyyəsində qurur, mövzu ilə əlaqədar bəzi məşğələləri təbiətin qoynunda keçirməyə üstünlük verirlər.

Həcər Heydərova onu da bildirdi ki, dərnək üzvlərinin muxtar respublika səviyyəli tədbirlərdə iştirakı da diqqət mərkəzində saxlanılır. Onların qədim diyarımızın təbiət abidələrinə ekskursiyaları təşkil olunur. Bu ekskursiyalar zamanı muxtar diyarımızın zəngin fauna və florası barədə söhbətlər aparılır, herbarilər, müqəvvalar, kolleksiyalar düzəldilir. Mərkəzdə həmin eksponatlardan ibarət sərgi otağı da vardır.



Yerli şəraitdən asılı olaraq təbiəti mühafizə işinin müxtəlif formalarından istifadə olunur: məktəb meşəçiliyi, gənc təbiətçi dərnək və klubları, məktəb qoruqları, meyvə bağları, ekologiya üzrə olimpiada və viktorinalar, məktəb ekologiya cəmiyyəti və sair belə maraqlı formalardandır.

Mərkəzdə doğma diyarımızın təbiətinə aid müxtəlif mövzularda viktorinalar, seminarlar təşkil edilir ki, bu da uşaqların ekoloji biliklərinin daha da möhkəmləndirilməsinə imkan verir. Bunlardan əlavə, mərkəz tərəfindən uşaqların bu sahədə daha çox biliklərə malik olması üçün muxtar respublikanın faydalı qazıntıları və dərman bitkilərinə aid əlavə metodik vəsaitlər hazırlanıb. Bunlardan da dərnək məşğələlərində geniş istifadə olunur. Mərkəzdə ilin müxtəlif ekoloji günlərindən ibarət təqvim də tutulub.

Məktəbdənkənar müəssisənin kabinə müdiri Pərvanə Vəliyeva deyir ki, dərnək üzvlərinin Payız meşəsinə, Nəbatat bağına, Duzdağ Fizioterapiya Mərkəzinə, Şahbuz Dövlət Təbiət Qoruğuna, Batabat Astrofizika Rəsədxanasına və muxtar respublikamızın digər guşələrinə ekskursiyaları təşkil edilib. Həmçinin ötən ayın 18-də Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində "Yay tətili uşaqların gözü ilə" devizi altında festival təşkil edilib. Festivalda Ekoloji Tərbiyə Mərkəzinin dərnək üzvləri də fəal iştirak edib, 1 dərnək rəhbəri və 2 dərnək üzvü mükafatlandırılıb.

Ekoloji tərbiyənin formalaşdırılmasında rolu olan mərkəzin əsas vəzifəsi gənc nəsildə ekoloji təfəkkürün, mədəniyyətin, sağlam həyat tərzinin, ətraf mühitə məsuliyyətli və humanist münasibətin möhkəmləndirilməsidir.

Təbiətə və təbii sərvətlərə qayğıkeş, humanist münasibət gənc nəsildə ekoloji mədəniyyəti formalaşdırır və onların gələcəkdə ekoloji cəhətdən savadlı, səriştəli mütəxəssis kimi yetişməsinə imkan yaradır. Bu baxımdan mərkəzin fəaliyyəti təqdirəlayiqdir.

**✍ N.ƏSGƏROV**

# Cizgi filmi deyib keçməyin

## Uşaqlar həyatı bu filmlərdən öyrənirlər

Diqqət etsək, görərik ki, azyaşlı uşaqların çoxu özünü hər hansısa bir cizgi film qəhrəmanına oxşatmağa çalışır, onun kimi danışır, hərəkətlərini təqlid edir. Məsələn, tanıdığım bir uşaq özünü "Maşa və ayı" cizgi filminin qəhrəmanı Maşaya oxşadır, onun etdiyi dəcəllikləri etməklə ərköyünlük sərgiləyirdi. Valideyninin dediyinə görə, hətta cizgi filminin hər seriyasından sonra orda gördüyü hərəkətləri eynilə təkrarlamağa cəhd edirdi.

Belə çıxır ki, cizgi filminin verdiyi tərbiyə valideynin tərbiyəsini üstələyib ki, uşaq özünü cizgi film qəhrəmanına oxşatmaqla bərabər, eyni zamanda valideynlərini, onların rəftarını da həmin personajlarla müqayisə edir. Müşahidələrimə əsaslanaraq deyə bilərəm ki, bu kimi hallar heç bir valideynin xoşuna gəlmir, əksinə, uşaq olmaqlarına baxmayaraq, təkrarladıqları hərəkətlər onların bəzilərini hövsələdən belə, çıxarır.





Bəs bu halları yaradan kimdir? Cizgi filminin ssenarisini yazanmı, yoxsa onu izləyənmi? Bəlkə, elə izləməyə şərait yaradan?

Deyirlər ki, uşaqlar həyatı cizgi filmlərindən öyrənir. Bəs, görəsən, həmin filmlər onlara həyatı necə öyrədir? Övladlarımıza bizim öyrətmək istədiyimizi, yoxsa tam əksini? Mövzu ilə bağlı psixoloq Şahnaz Məmmədova ilə həmsöhbət oluruq. Onun dediklərindən:

– Uşaqlarımızın intellektual səviyyədə yetişməsi üçün onu heç nədən məhrum etməməli, hər yaş dövrünün özünəxas məşğuliyyətləri ilə vaxt keçirmələrinə icazə verməliyik. Təbii ki, müəyyən çərçivə daxilində. Uşaqlar çox kiçik yaşlarından televiziyaya maraq göstərirlər. Onlar 18 aylıqdan etibarən televizordan gələn səs və görüntülərə reaksiya verirlər. 3-6 yaşlarda isə bu rolun əhəmiyyəti daha da artır. Çünki bu yaş qrupundan olan uşaqlar cizgi filmini izləyərkən artıq onun məzmununu da dərk edirlər. Buna görə də onların hansı məzmunda cizgi filminə baxdığına diqqət yetirməliyik. Biz özümüz də cizgi filmləriylə böyüyən nəsil olmuşuq. Amma, gəlin nəzər salaq, ozamankı cizgi filmlərinə və onların qəhrəmanlarına. Məsələn, yerli cizgi filmlərimizdən "Cırtdan", "Tıq-tıq xanım"da dostluq, dürüstlük var. Hətta "işıq gələn tərəfə get" kimi zaman-zaman işlədilən belə cümlələrlə onlar bizə yol da göstərirdilər. Bu cizgi filmlərində nə qəhrəman o birini döyür, nə də kimisə təhqir edirdi ki, biz də onlardan təsirlənərək kiməsə şiddət tətbiq edək.

Lakin bugünkü bəzi cizgi filmləri, kompüter oyunları uşaqlarda daha çox mənfi xüsusiyyətlər formalaşdırır. Bəzi valideynlər mənə uşaqlarının kinli, başqalarına qarşı daim hikkəli olması, yaşıdlarına, bağça, məktəb yoldaşlarına şiddət göstərməsi şikayəti ilə müraciət edir. Onlarla söhbətlərdən də aydın olur ki, həmin uşaqlar günün əksər hissəsini kompüter oyunları oynamaqla keçirirlər. Çünki bu oyunların çoxunda silahla qarşındakı hədəfi vurmaq tələb olunur. Kiçik yaşından belə şiddət təbliğ edən oyunlar oynayan uşaqlar zaman-zaman özlərini həmin oyunun bir parçası, hətta qəhrəmanı hesab etdiyindən kənardakılara da şiddət göstərirlər.

Cizgi filmlərinə gəldikdə isə, bu baxımdan onların da bəziləri kompüter oyunlarından geri qalmır. Davamlı olaraq aqressiv xarakter aşılayan cizgi filmi izləyən uşaqların digər yaşıdlarına görə daha çox dalaşdıqları və daha gərgin olduqları müşahidə edilməkdədir.

Bu uşaqlar ana-ata və böyüklərlə münasibətlərində də səbirsiz olurlar. Uşaqdır, gələcəkdə xatırlamaz deyib keçməyin, uşaqların qavradığı hər şey illər sonra ortaya çıxır. Buna görə də kiçik yaşlarında öyrəndikləri onların gələcəklərinə bilavasitə təsir edir.

Şahnaz Məmmədova onu da qeyd edir ki, bütün bunlara baxmayaraq, uşaqları cizgi filmlərindən məhrum, onları yaşlarından böyük proqramlara baxmağa vadar etmək də düzgün deyil. Sadəcə, valideynlər seçimdə diqqətli olmalıdırlar. Beləliklə, xüsusilə aqressiya məzmunlu cizgi filmlərindən uşaqları uzaq tutmalı, hətta əvvəlcədən onu özü izləyib uşaq üçün yararlı olub-olmadığı qənaətinə gəlməli, övladının, müsbət mənada, təsirlənəcəyi cizgi filmlər barədə maraqlanmalı, maariflənməlidirlər. Cizgi filmini izlədikdən sonra onun məzmunu, qəhrəmanları barədə müzakirə aparmalı, uşağın ondan tam olaraq nə qavradığını, hansı nəticəni götürdüyünü öyrənməlidirlər. Əgər övladları hər hansısa bir hadisəyə yanlış qiymət veribsə, ona filmdə gördüklərini düzgün qiymətləndirməyə kömək etməli, hadisələri müsbət və doğru istiqamətdə izah edib aydınlıq gətirməlidirlər. Bundan əlavə, cizgi filmi izləməyin də saatı olmalıdır. Beynimiz biz istədiyimiz tərzdə işləmir. İstər uşaq, istərsə də böyük, yaşdan asılı olmayaraq, betta dalğasında olur. Məktəbəqədər dövrünə kimi uşaqlara gün ərzində ən çoxu 30 dəqiqə, daha yuxarı yaşlarda isə gün ərzində 1 saat olmaqla, televizor izləməyə icazə vermək olar.

Psixoloqun da vurğuladığı kimi, ekran qarşısında uzun müddət qalan uşaqlar artıq sosial sferada kifayət qədər vaxt keçirmədikləri üçün sosial həyatlarında vacib olan bacarıq və vərdişlərdən geridə qalmış olur və bununla da, sosial münasibətlər qurmaqda çətinlik çəkirlər. Uşaqları bütün günü ekran qarşısında oturtmaq yerinə, onları digər faydalı fəaliyyət sahələrinə yönəltmək, birlikdə oyunlar oynamaq daha məqsədəuyğundur.

Xaricdə çəkilmiş cizgi filmləri arasında ən çox Türkiyə, yaxud da fərqli ölkələrin istehsalı olub, türk dilinə tərcümə edilənlər daha çox izlənilir. Müşahidə aparsaq, görərik ki, bu cizgi filmlərinə baxan uşaqlar fikirlərini Azərbaycan dilində ifadə edəcək sözlər tapa bilmir, həmin sözün türkcə qarşılığını deyərək ətrafındakıları başa salmağa çalışırlar. Bunun özü də mənfi amildir. Hətta deyərdim ki, kiçik yaşlarda cizgi filmi ilə başlayan məşğuliyyət müəyyən yaşdan sonra seriallarla əvəzlənir. Uşaqları mümkün qədər onlardan da uzaq tutmaq lazımdır. Çünki uşaq, yaxud da yeniyetmə cizgi filmindəki, serialdakı qəhrəmanın rahat, problemsiz həyatını arzulayır, hətta bəzən arzulamaqla qalmayıb təkidlə istəyir, onların filmdə, yəni gerçək həyatdan kənar bir yerdə etdiyi hərəkətlərin



eynisini edir. Bütün bunlar da bizim istər ailə dəyərlərimizə, istərsə də mentalitetimizə tamamilə zidd hallardır.

Çalışaq ki, uşaqlarımız milli dəyərlərimizə uyğun dürüstlüyü, zəhmətkeşliyi, dostluğu özündə simvolizə edən cizgi filmləri izləsinlər və gələcək nəsil də məhz elə bu meyarlar üzərində yetişsin.

✍ **Fatma BABAYEVA**

---

*Gənc istedadlar*

# Naxçıvan rəssamlıq məktəbinin yetirməsi

***Muxtar respublikada rəssamlıq sahəsində xüsusi istedada malik olan çox sayda gənc rəssam var. Bu gün onların əsərləri muxtar respublikada, eləcə də ölkə miqyaslı sərgilərdə uğurla nümayiş etdirilir. Bu əsərlər peşəkarlar, eləcə də həvəskar rəsmsevərlər tərəfindən maraqla qarşılanır.***

Hazırda Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvləri arasında gənc rəssamlar üstünlük təşkil edirlər. Bu da ondan irəli gəlir ki, son illərdə muxtar respublikada həyata keçirilən tədbirlər nəticəsində rəssamlıq sənəti inkişaf edib. Bu rəssamlar Bəhruz Kəngərli irsinin davamçıları kimi yaşayıb-yaradır, incəsənətin inkişafına öz töhfələrini verirlər. Onlar üçün emalatxanaların istifadəyə verilməsi, bu sahədə istedada malik olanların üzə çıxarılması muxtar respublika rəhbərinin böyük diqqət və qayğısı nəticəsində mümkün olub. Ötən müddətdə Naxçıvan Dövlət Universitetində və Naxçıvan Müəllimlər İnstitutunda Təsviri incəsənət müəllimliyi ixtisaslarının açılması gənc rəssamlar nəslinin yetişməsi və orta məktəblərdə təsviri incəsənət dərslərinin tədrisinin daha yaxşı aparılması üçün göstərilən böyük təşəbbüsdür.

Budəfəki yazımız sözügedən institutun yetirməsi olan Xədicə Əlizadə haqqındadır. Onun çəkdiyi şəkillərin emosional təsiri, özünəməxsusluğu elə ilk baxışdan nəzərə çarpır. O, rəssamlıq sənəti ilə bağlı düşüncələrini bizimlə paylaşdı. Həmsöhbətimiz dedi ki, onda bu sənətə həvəs uşaqlıq illərində yaranıb, balaca yaşlarında baxdığı cizgi filmlərinin qəhrəmanlarını kağız üzərində tez-tez cızma-qara edib. Orta məktəbdə oxuduğu illərdə onun bacarığı özünü göstərməyə başlayıb. Beləcə, Xədicənin istedadı qısa müddət ərzində ona dərs deyən müəllimlərin də diqqətini çəkib. Məktəb illəri onun üçün bu sahədə daha uğurlu olub, rəsmxət müəllimindən ilk addımları atmağı öyrənib.



Onun dediklərindən: Rəsmxət dərsinə marağım böyük olub. Çəkdiyim işlərə görə yaxşı qiymətlər alırdım. Müəllimlərim də deyirdi ki, sən böyüyəndə yaxşı rəssam ola bilərsən. Onların dəstəyi zaman keçdikcə rəssamlıq sənətinə maraq və həvəsimi daha da artırdı. Naxçıvan Müəllimlər İnstitutunda mən özümə doğma hiss etdiyim müəllimlərlə yaxından tanış oldum ki, bu da mənim gələcək uğurlarıma yol açdı. Onlar içərisində Səriyyə Əkbərovanın adını xüsusi qeyd etməliyəm.

Səriyyə müəllimə mənə institutdaxili rəsm sərgilərində iştirak etmək üçün çox böyük kömək etdi, məni bu sənətin sirlərini daha dərindən öyrənməyə həvəsləndirdi. Bu illər ərzində mən, həmçinin Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda təşkil edilən sərgilərdə, müsabiqələrdə də iştirak edirdim. Həmin tədbirlərdən xatirə qalan diplom və mükafatlarım indi mənim üçün ən əziz yadigarlardır. "Naxçıvan – bəşəriyyətin beşiyi" adlı Beynəlxalq Rəsm festivalları da mənim üçün xüsusilə əlamətdar olub. 2014-cü ildə keçirilən eyniadlı festival zamanı mən institutun birinci kursunda təhsil alırdım. Bizi də həmin festivala baxmağa aparmışdılar. Dünyanın tanınmış rəssamları adıçəkilən festivalda iştirak edirdi, onların əsərləri, janr və üslub rəngarəngliyi məni heyrətə gətirmişdi. Həmin festivalda muxtar respublikanın tanınmış rəssamı Eldar Zeynalovla görüşüb söhbət etmək imkanı əldə etdim. Əsərləri ilə tanış olduqdan sonra heç tərəddüd etmədən Eldar müəllimdən dərs almağı qərara aldım. Çünki bilirdim ki, görkəmli rəssamın tələbəsi olmaq məni gələcəkdə daha böyük uğurlara apara bilər. İki il ərzində Eldar Zeynalov mənə rəssamlığın sirlərini öyrətdi. Azərbaycan xalq rəssamlarının əsərlərinə çox böyük rəğbətim var.

Biz gənclər üçün bu gün ən böyük töhfələrdən biri də budur ki, rahat işləmək üçün emalatxanalarımız var. Yaradılan şərait gənc rəssamların, eləcə də mənim inkişafıma təkan verir.

Müsahibim onu da dedi ki, rəssamlıq mənim üçün özünüifadə, özünütəsdiq üsuludur. Müxtəlif sərgilərdə iştirakım və nailiyyətlərim bunun sübutudur. Ümumiyyətlə, incəsənət mənim üçün hər şeydir. Rəssamlığın bütün janrları maraqlıdır. Ancaq ən çox qrafika janrına üstünlük verirəm.

Xədicənin fikrincə, rəssamlıq sənətinin təməli məhz bu janrla atılır. Ən çox sevdiyi rənglər çəhrayı və mavi rənglərdir. O, tez-tez öz molbertini götürərək muxtar respublikanın gəzməli-görməli yerlərinə gedir, Tanrının yurdumuza bəxş etdiyi təbiət gözəlliklərini kətan üzərinə köçürür. Xədicənin yaratdığı əsərlərin bəyənilməsi üçün təxəyyül də əsas rol oynayır.

Onun ən böyük arzusu rəsm qalereyası yaratmaqdır. Biz də, öz növbəmizdə, Xədicəyə sənət yolunda yeni-yeni yaradıcılıq uğurları arzulayırıq. Əminik ki, dövlətimiz tərəfindən yaradılan şərait Xədicə kimi bir çox gəncimiz üçün geniş üfüqlər açacaqdır.

✍ **Nail ƏSGƏROV**

---

## Cüdoçularımız beynəlxalq turnirdə iki medal qazanıblar

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yetirmələri beynəlxalq turnirdə uğura imza atıblar.

Belə ki, 8-20 avqust tarixlərində Türkiyənin Sakarya şəhərində valilik kuboku uğrunda cüdo üzrə "Zəfər həftəsi" beynəlxalq turniri keçirilib.

Naxçıvan cüdo məktəbinin yetirmələri uğurlu çıxışları ilə hamının diqqətini cəlb edib. 42 kiloqram çəki dərəcəsində tatami üzərinə çıxan Abbas Məmmədov finala kimi bütün rəqiblərini məğlub edib. Həlledici görüşdə üstünlüyü əldən verən idmançımız beynəlxalq turniri gümüş medalla başa vurub. Komandamıza gümüş medal qazandıran digər cüdoçu Aqil Musayev olub. O, 90 kiloqram çəki dərəcəsində bu uğura imza atıb.

Sonda idmançılarımız təşkilatçılar tərəfindən diplom və medalla təltif olunublar.

✍ **Ceyhun MƏMMƏDOV**

---

### İtmişdir

Seyidov Heydər Mircəfər oğlunun adına verilmiş VÖEN itdiyindən etibarsız sayılır.

***

Əhmədov Erol Əkbər oğlunun adına verilmiş 103013003543 reyestr nömrəli plan-ölçü və 0025560 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Muxtar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 674